Azərbaycan Respublikası
Mədəniyyət və Turizm Nazirliyi

**F.Köçərli adına Respublika Uşaq Kitabxanası**



**“Saz - Söz sərvətimizin keşiyində” Aşıq Hüseyn Şəmkirlinin anadan olmasının 205, Aşıq Ələsgərin 195 illik yubileyi münasibəti ilə respublika uşaq kitabxanaları üçün hazırlanmış metodik vəsait**

**Bakı – 2016**

Tərtibçi: **Ruhiyyə Məmmədli**

Redaktor və
buraxılışa məsul: **Şəhla Qəmbərova**

**“Saz-Söz sərvətimizin keşiyində”** Aşıq Hüseyn Şəmkirlinin 205 “Haqq aşığı - Aşıq Hüseyn Şəmkirli”, Aşıq Ələsgərin 195 illik yubileyi münasibəti ilə “Ələsgərəm, hər elmidən halıyam...”adlı respublika uşaq kitabxanaları üçün hazırlanmış metodiki vəsait / tərt. ed. R. Məmmədli; red. və burax. məsul Ş.Qəmbərova; F.Köçərli adına Respublika Uşaq Kitabxanası.- Bakı, 2016.- 33 s.

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası 2016**

## Tərtibçidən

Azərbaycanda kökü neçə min illərə söykənən mənəvi bir qaynaq vardır. Ozan sənəti, aşıq sənəti, saz sənəti!

Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın yüksək diqqət və qayğısı sayəsində Azərbaycan mədəniyyətinin tarixinə daha bir parlaq səhifə yazılmışdır. YUNESKO-nun Qeyri maddi-mədəni irsin qorunması üzrə Azərbaycanın aşıq sənəti YUNESKO-nun qeyri-maddi mədəni irs siyahısına daxil edilmişdir. Bu əlamətdar hadisə aşıq sənətinin Azərbaycan mədəni irsinin ən qədim nümunələrindən biri olduğunu beynəlxalq səviyyədə bir daha təsdiqləyir. Biz çox şadıq ki, bundan sonra aşıq sənətimiz həm də YUNESKO tərəfindən qorunacaqdır.

Saz-söz dünyasında elə nadir və nəhəng simalar vardır ki, onları mənsub olduqları sənət sahəsinin simvolu hesab etmək olar. Bu aşıqlar Azərbaycanın aşıq sənətinin bütün dönəmlər üçün sənət pasportu olmaq haqqının əsas daşıyıcılarıdır. Bu gün yubileyini qeyd etdiyimiz Aşıq Hüseyn Şəmkirli, Aşıq Ələsgər belə yüksək xüsusiyyətlərə malik olan aşıqlarımızdandır. Du dəyərli aşıqlarımız eyni dövrdə yaşamış, bir-biri ilə çox gözəl münasibətdə olmuşlar. F.Köçərli adına Respublika Uşaq Kitabxanasının Elmi metodika şöbəsi olaraq biz də, aşıq sənətinin kitabxanalarımızda təbliği üçün bu dəyərli sənətkarlarımız haqqında yazılmış **"Saz-Söz sərvətimizin keşiyində"** adlı vəsaiti işləməyi özümüzə borc bildik. Vəsaitin I hissəsi "**Haqq aşığı - Aşıq Hüseyn Şəmkirli"** adlanır. I hissə Aşıq Hüseyn Şəmkirlinin həyat və yaradıcılığından bəhs edir. Vəsaitin II hissəsi isə **"Ələsgərəm, hər elmidən halıyam..."** adlanır və Aşıq Ələsgərin həyat və yaradıcılığından bəhs edir.

# Haqq aşığı - Aşıq Hüseyn Şəmkirli

Aşıq poeziyası və aşıq sənəti Azərbaycan xalqının bədii təfəkkürünün parlaq və zəngin bir sahəsidir. Həmişə xalqla qırılmaz əlaqədə olan aşıq yaradıcılığı həyatın və zamanənin tələblərinə uyğun inkişaf edərək müxtəlif mərhələlərdən keçmiş, parlayıb çiçəklənmiş, kamil ustalar yetirmişdir. Aşıq sənətinin yüksəlişi ustad aşıqların və qüdrətli xalq dastanlarının yaranması ilə bağlı olmuş, xalqımızın bədii fikir tarixinin yeni mərhələsi kimi qeyd olunmuşdur. Bu dəyərli keyfiyyətlərə malik olan aşıqlarımızdan biri də Aşıq Hüseyn Şəmkirlidir. Tanınmış aşıqlardan olan, bu il 205 illik yubileyini qeyd etdiyimiz Aşıq Hüseyn Şəmkirli aşıq sənətinin klassiklərindən hesab olunur. Onun yaradıcılığında vətənpərvərlik, el-obaya, torpağa olan bağlılıq öz əksini tapıb. Xalq sevgisindən, gözəllikdən ilham alan aşıq öz sənətini müasir aşıqlarımıza miras qoyub getmişdir.

Aşıq Hüseyn Şəmkirli 1811-ci ildə Şəmkir rayonunun Qapanlı kəndində anadan olmuşdur. Aşıq Hüseyn Şəmkirli cavan vaxtlarında Qapanlı kəndindən Qaracəmirli kəndinə köçmüş, ömrünün axırına qədər burada yaşamışdır. Aşıq Hüseyn gənc yaşlarından şeir yazmağa başlamış, dövründən, zamanəsindən şikayətçi olmuş, bu mövzuda şeirlər qoşmuşdur. “Dilqəmi” saz havasını Aşıq Hüseyn Şəmkirli Yəhya bəyin nakam taleyi ilə bağlı yaratmışdır. “Yəhya bəy və Dostu xanım” adlı dastan bu gün də aşıqların dilində söylənməkdədir. Aşıq Hüseyn Şəmkirli Azərbaycan, ərəb və fars dilində mükəmməl təhsil almışdır. Deyilənə görə Aşıq Hüseyn 10 ilə yaxın Şərq ölkələrini gəzib. Aşıq “Zarıncı”, “Zeynalabdini”, “Sarayı”, “Şəmkir gözəlləməsi”, “Hüseyni”, “Dilqəmi” kimi gözəl saz havaları, 1000 qatara yaxın şeir söyləyib və 3 dastan yaradıb.

Atası Qurban kişi oğlunu Alabaşlı kəndində yaşayan məşhur dəmirçi Kəblə Bağırın yanına gətirərək ona şəyird verir. Kəblə Bağır adi dəmirçi deyildi, mükəmməl mədrəsə

təhsili almış, ərəb-fars dillərini öyrənmiş dövrünün gözüaçıq, savadlı, yeni fikirli adamlarından biri idi. Kəblə Bağır dəmirçilik sənəti ilə yanaşı saz çalar, şeir qoşar, "Məzlum" təxəllüsü ilə qoşmalar yazardı. Kəblə Bağır az vaxt içərisində Hüseynin istedadını qiymətləndirir, ona saz, söz sənətinin sirlərini öyrədir. Hüseynin əlində dəmir, ürəyində söz muma dönür.

Nazlı yarın gül yanağı,
Yaraşıbdır xal üstünə.
İncə beldə gümüş kəmər
Düzülübdür pul üstünə.

Bəzi rəvayətlərə görə Aşıq Hüseyn Şəmkirli Molla Pənah Vaqifin bacısı nəvəsidir. Burada özünü doğruldan müəyyən bir tərəf də var, "Qoç igid dayısına oxşar". Vaqif nəfəsi, şeir ənənəsi Şəmkirli Aşıq Hüseyndə özünü göstərirdi. Vaqifin məşhur "Oynasın" rədifli qoşmasının davamını biz Şəmkirlinin eyni adlı qoşmasında görürük. Bu genetik koddan, ənənədən də irəli gələ bilərdi. Aşıq Hüseyn Şəmkirlinin dövründə onunla üzbəüz gəlib, onun meydanında qürrələnə biləcək bir sənətkar görünmür.

Aşıq Hüseyn Şəmkirlinin altı yüz divanisi, təcnisi, yeddi yüz qıfılbəndi, səksən bəhritəhvili olsa da, zəngin irsinin çox az bir hissəsi bizə gəlib çatıb. Aşıq Hüseyn Şəmkirli yazıb, oxumaq bildiyindən şeirlərini həm də yazı şəklində ortaya qoyub. Aşıq Hüseynin əldə olan əsərləri nəhəng irsinin cüzi bir hissəsidir. Bununla belə bir çox dastan rəvayətləri və yüzə yaxın şeiri divanillər, müxəmməslər, təcnislər, qoşmalar yaddaşlara sığınıb günümüzə qədər gəlib çatıb. XIX əsr mənzərəsində Aşıq Hüseyn Şəmkirli, Aşıq Ələsgər və Aşıq Hüseyn Bozalqanlı Azərbaycan aşıq sənətinin unudulmaz üçlüyüdür. Cərgənin bu cür düzülüşü onların yaş dövrləri ilə bağlıdır. Aşıq poeziyasının inkişafında bu üçlük misilsiz xidmətlər göstərmişdir.

Bu il Aşıq Hüseyn Şəmkirlinin 205 illik yubileyidir. Aşıq Hüseyn Şəmkirli böyük simadır və onun yubileyinin geniş

miqyasda, çox yüksək səviyyədə qeyd olunması olduqca vacibdir. Bu münasibətlə respublikamızın hər bir müəssisəsində kitabxanalarda, məktəblərdə, lisey və gimnaziyalarda bir sözlə aşıq sənətinə qiymət verən dövlət müəssələrində tədbirlər planı hazırlanmışdır. Həmçinin, F.Köçərli adına Respublika Uşaq Kitabxanasında da belə tədbirlərin keçirilməsi nəzərdə tutulmuşdur. Belə tədbirlərin siyahısına kitab sərgisini, aşıq sənəti ilə bağlı kitab müzakirəsini, şeir, rəsm müsabiqəsini, ədəbi-bədii gecəni və başqa tədbirləri daxil etmək olar. Əvvəlcə kitabxanada Aşıq Hüseyn Şəmkirlinin kitablarının sərgisi təşkil olunur. Sərgi müxtəlif başlıqlar altında keçirilə bilər. Məsələn: "Saz-Söz sərvətimizin keşiyində", "Sazın əbədiyyət yolu", "Saz-söz ustadı Aşıq Hüseyn Şəmkirli", "Aşıq Hüseyn Şəmkirli-205", "Haqq aşığı - Aşıq Hüseyn Şəmkirli", "Mübariz ruhlu Aşıq Hüseyn Şəmkirli", "Aşıq sənəti və Aşıq Hüseyn Şəmkirli", "Xatirələrdə yaşayan sənətkar", "Sözdən alıb, saza deyim dərdimi...," və s. İndi isə sərginin sxemini nümunə üçün veririk:

1. Başlıq.
   Saz-söz ustadı-Aşıq Hüseyn Şəmkirli
   Foto-stend.
2. Kitablarının nümayişi.
3. Dövrü mətbuatda çap olunan materialların nümayişi.
4. Görkəmli insanların Aşıq sənəti və Aşıq Hüseyn Şəmkirli haqqında söylədikləri sitatlar.
5. Şeir parçası.

Aşıq gərək hər məclisdə sayılsın,
Sözünü eşidən qansın, ayılsın.
Kəlmə çıxar şirin cana yayılsın
Qaldırıb səsini zilə, danışma.








**Görkəmli şəxsiyyətlərin Aşıq Hüseyn Şəmkirli haqqında söylədikləri**

Aşıq Hüseyn Şəmkirli o xoşbəxt sənətkarlardandır ki, zaman axdıqca, sular durulduqca, sazın sarı simi könlümüzə toxunduqca dirilən, durulan söz xəzinəsi ilə ruhumuzu işıqlandırır, yada düşür, xatırlanır.

Hikmət dolu, nəsihət dolu əsərlər yaradan el sənətkarı Aşıq Hüseyn Şəmkirli elə xalqın qəlbində, ruhunda özünə yuva quraraq, onun sinəsində, hafizəsində dövrdən-dövrə yaşamış, unudulmamışdır.

Aşıq Hüseyn Şəmkirlinin irsi böyük bir məktəbdir.

**Əməkdar jurnalist Flora Xəlilzadə**

Aşıq Hüseyn Şəmkirlinin şeirinin rəngləri, gözəlliyi bu lirikada işlədilən sözlərin çoxmənalılığı, xəlqiliyi ilk növbədə Azərbaycan dilinin zənginliyi ilə əlaqədardır.

Aşığın dili son dərəcə xəlqidir, xalq danışığına daha yaxındır. Həm də harmonik, ritmik xüsusiyyət Aşıq Hüseyn Şəmkirlinin şeirlərində daha güclüdür.

**Professor Məhərrəm Qasımlı**

Aşıq Hüseyn Şəmkirli XIX əsrdə yaşayıb-yaradan möhkəm tellərlə öz kökünə bağlı olan, əsaslı bir zəmin üzərində ucalan sənətkardır.

Aşıq Hüseyn Şəmkirli təbiətin hər fəslində baş verən dəyişiklikləri incəliklə, gözəllikləri həssaslıqla izləyir, müxtəlif əsrarəngiz lövhələrin sözlə şəklini çəkirdi.

**Şair Barat Vüsal**

Aşıq Hüseyn Şəmkirlinin 205 illik yubileyi münasibətilə kitabxanada "Saz-Söz sərvətimizin keşiyində" adlı şeir müsabiqəsinin keçirilməsi məqsədəuyğundur. Müsabiqə zamanı oxucular yubilyarın həyat və yaradıcılığı ilə yaxından tanış olur, ən çox bəyəndikləri şeirlərini əzbərləyib, müsabiqəyə qatılırlar. Müsabiqəyə 1 ay hazırlıq görülür. Aşığın şeirlərini ən yaxşı söyləyən oxucu müdriyyət tərəfindən mükafatlandırılır.

**I Oxucu On beş il (təcnis)**
Bəlkə məni nəzərindən salan var,
Yada salmaz üç il, beş il, on beş il.
Heç deməzmi mənim dərdim çəkən var,
Həsrət qalar üç il, beş il, on beş il.

Dərya elmin vermək olmaz ay ada,
Təbib olan, çağır gəlsin aya da,
Göz görməsə, ağıl salmaz a yada,
Gəl görməyə üç il, beş il, on beş il.

Aşıq Söyün qalib dərd ayağında,
Xəstə şəfa bular dərd ayağında,
Ahu seyr eləyər dərd ayağında,
Ovçu gözlər üç il, beş il, on beş il.

**II Oxucu Yaxşıdı (qoşma)**
Bir adam ki, sənlə ülfət eyləsə,
Yəqin onun əsil zatı yaxşıdı.
Namərd sənə quzupilov yedirsə,
Mərdin quru məhəbbəti yaxşıdı.

Aşıq olan sözün söyləyər başdan,
Sallabaş adamdan, ürəyi daşdan,
Bədnəzər qonşudan, bədcins yoldaşdan,
Qədirbilənlərin iti yaxşıdı.
Aşıq Söyün söylər kəlməni "tey"dən
Dərsimi almışam " Əlif"dən, "bey"dən,
Çörəksiz otaqdan, gözəlsiz evdən,
Çölün, biyabanın otu yaxşıdı.

**III Oxucu Sarı gül (qoşma)**
Yarın bağçasında üç gül açılıb,
Ağ gül, qırmızı gül, bir də sarı gül.
Hər üçü də bir-birindən öyməli,
Ağ gül, qırmızı gül, bir də sarı gül.

O ağ gülün qapısından baxmalı,
Qızıl gülü al yanağa taxmalı,
Sarı gülü dəstə tutub qoxmalı,
Ağ gül, qırmızı gül, bir də sarı gül.

Ağ gülü bənzətdim göy göyərçinə,
Şəkər əzib dəhanının içinə,
Hüseyn müştaq olub gülün üçünə,
Ağ gül, qırmızı gül, bir də sarı gül.

**IV Oxucu Hüseynim (qoşma)**

Hər səhərdə sənin adın söylənir,
Hayıf gəldin bu diyara, Hüseynim.
Reyhan çox arifdi, tayı tapılmaz.
Səni salar çox azara, Hüseynim.

Eynən qıfılbənddi zalımın sözü,
Dünyaya tək gəlib keşişin qızı,
Asıb otağından on səkkiz sazı,
Sonra çəkər səni dara, Hüseynim.

Yetircəyin qollarını bağladar,
Sinən üstün çar-çarpaz dağladar,
Axır qorx ki, anacığın ağladar,
Səni salar ahu zara, Hüseynim.

**V Oxucu Danışma (qoşma)**

Qafil könül, bir məclisə varanda,
Ver qabağa acı dilə, danışma.
Hərcayı söyləmə, hərcayı demə,
Laf eyləyib gülə-gülə danışma.

Aşıq gərək hər məclisdə sayılsın,
Sözünü eşidən qansın, ayılsın,
Kəlmə çıxart, şirin cana yayılsın,
Aşırıb sözünü zilə danışma.

Sözün mana tutma azğın axmağın,
Xoşlanılmaz aralıqdan çıxmağın,
Layiq deyil başa qaxınc qaxmağın,

Öz eybini bilə-bilə danışma.

Yazıq Söyün, əhdin yetər yerinə,
Könül bağla aşıqların pirinə,
Çək sözünü həqiqətə, dərinə,
Hər qədirbilməzə belə danışma.
Sözdən alıb, saza deyim dərdimi...,

**Ədəbi bədii gecə**

Kitabxanada keçirilən tədbirlərin siyahısına ədəbi-bədii gecəni də daxil etmək olar. Bu tədbir oxucuların ən çox sevdiyi tədbirlərdən biridir. Tədbirə aşıq yaradıcılığını yaxından izləyən aşıqlar, sənət adamları və s. qonaqlar dəvət olunur. **"Saz-söz ustadlarımız"** adlı başlıq, aşıq sənətindən bəhs edən şəkillər divardan asılır. Səhnə gül-çiçəklə bəzədilir. İlk öncə tədbir iştirakçılarına Aşıq Hüseyn Şəmkirlidən bəhs edən slayd təqdim olunur. Tədbir aşıq musiqisinin sədaları altında başlayır. Aparıcılar səhnəyə çıxıb, tədbiri açıq elan edirlər.

**I Aparıcı:** Salam əziz və hörmətli qonaqlar. Xoş gəlmisiniz. Aşıq poeziyası və aşıq sənəti Azərbaycan xalqının bədii təfəkkürünün parlaq və zəngin bir sahəsidir. Ədəbiyyat və incəsənət xəzinəmizin qiymətli incilərindən olan aşıq sənəti öz mahiyyəti etibarı ilə həmişə xalq həyatına yaxın olmuş, müxtəlif tellərlə xalqın gündəlik mübarizəsi və mənəviyyatı ilə bağlanmışdır.

**II Aparıcı:** Bu gün bura Aşıq Hüseyn Şəmkirlinin 205 illik yubileyi münasibətilə yığışmışıq. Hikmət dolu, nəsihət dolu əsərlər yaradan el sənətkarı Aşıq Hüseyn Şəmkirli dəyərli aşıqlarımızdan biridir. Musiqi ilə bağlılığın nəticəsidir ki, el sənətkarlarının yaratdığı sənət inciləri daha lirikdir, emosionaldır, oxucuda hiss-həyacan oyatmaq qabiliyyətini yüksəldir. Başqa aşıqlardan fərqli olaraq Aşıq Hüseyn Şəmkirli bəstəçi aşıq idi. O, bir çox saz havalarının müəllifi idi.

**II Aparıcı:** Aşıqların dediyinə görə Şəmkirli 10-dan çox hava bəstələyib, ancaq indi onun adı ilə ortada olan havalar "Aşıq Hüseyn gözəlləməsi" deyilən məşhur hava (Dastanı), "Zarıncı havası", "Şəmkir sarayı", məşhur "Dilqəmi" saz havasıdır. Aşıq Hüseyn Şəmkirli yaradıcılığında havaların melodik tərkibinə baxanda adamı heyrət bürüyür ki, nə qədər yüksək musiqi duyumu olmalıdır ki, havanı bu cür dəqiqliklə bəstələyəsən.Təsadüfi deyil ki, bu havalardan ikisi "Dilqəmi" və "Aşıq Hüseyni" havaları bu gün solo saz ifaçılığında çox mühüm yer tutur. Şəmkirlinin şeirlərində bu gözəllik var.

**I Aparıcı:** Yarın bağçasında üç gül açılmış,
Ağ gül, qırmızı gül, illah sarı gül.
Hər üçü də bir-birindən sevməli,
Ağ gül, qırmızı gül, illah sarı gül.

Nə qədər gözəldir. Bunların içərisində həm melodik axar, həm kolorit, həm cazibədarlıq var. Aşıq Hüseyn Şəmkirlinin sənət dünyası poeziyası, aşıq sənətindəki xidməti doğrudan da unudulmazdır. Aşıq Hüseyn Şəmkirlinin irsi böyük bir məktəbdir. Onun irsini uca tutmaq lazımdır.

**II Aparıcı:** Hüseyn deyərlər adıma,
Ellər yetişsin dadıma.
Yarım düşəndə yadıma
Yansa pərvanə layiqdir.

Aşıq Hüseyn Şəmkirli lirik şeirlərlə yanaşı, irihəcmli əsərlərin də müəllifidir. Bunların arasında "Vaqif" dastanı, "Hüseyn Reyhan" dastanı, "Aşıq Hüseynin Bəyçobanla əhvalatı", Aşıq Hüseynlə Aşıq Ələsgərin görüşü" və s. dastan və poetik rəvayətlər var. Bəli, Aşıq Hüseyn Şəmkirlinin IX-XX yüzilliyə aid Qafqaz çevrəsinə mənsub olan qüdrətli saz-söz ustadı olan Aşıq Ələsgərlə sənət əlaqələri barədə el-oba arasında çoxsaylı rəvayətlər dolaşmaqdadır. Gəlin kitabxanamızın oxucularının ifasında bu iki sənətkarın dostluğu ilə bağlı bir səhnəciyə tamaşa edək.

*Səhnə o dövrü xatırladan dekorasiyalarla bəzədilir. Səhnəyə aparıcı, Aşıq Hüseyn Şəmkirlinin, Aşıq Ələsgərin və oğlu Talıbın rolunu ifa edən oxucular çıxırlar.*

**Aparıcı:** Aşıq Hüseyn Şəmkirli yaylaqda olanda ürəyinə düşür ki, gedib Göyçədə Aşıq Ələsgəri görsün. Aşıq Hüseyn atını minir, sazını da çiyninə salır, yola düşür. Aşıq Ələsgərin də ürəyinə damır ki, Aşıq Hüseyn Şəmkirli onlara qonaq gələcək. Aşıq Ələsgər oğlu Talıbı yanına çağırır.

**Aşıq Ələsgər:** Oğlum Talıb bu gün bizə Aşıq Hüseyn Şəmkirli qonaq gələcək. Gətir bura qoç bağla, gələndə qabağında kəsəcəm.

**Aparıcı:** Aşıq Hüseyn Şəmkirli gəlib kəndə girir, görür ki, damın üstündə bir kişi oturub qəlyan çəkir. Bilir ki, bu Aşıq Ələsgərdir.

**Aşıq Hüseyn Şəmkirli:** Salamməleyküm.

**Aşıq Ələsgər:** Əleykəssalam, Aşıq Hüseyn Şəmkirli!

**Aparıcı:** *Aşıq Ələsgərlə Aşıq Hüseyn oturub xeyli söhbət edirlər, çay içib, çörək yeyirlər. Camaat Aşıq Hüseyn Şəmkirlinin gəldiyini eşidib, Aşıq Ələsgərin evinə toplaşırlar. Bir qədər keçəndən sonra Aşıq Hüseyn Şəmkirli Aşıq Ələsgərə deyir.*

**Aşıq Hüseyn:** Gəl deyişək. Camaat bizi dinləməyə gəlib.

**Aşıq Ələsgər:** Hüseyn əmi məsləhət sizindir.

**Aparıcı:** Aşıq Hüseyn aldı, görək nə dedi, məclisdəkilər nə eşitdi:

**Aşıq Hüseyn:**Analar oğlan doğanda
Qoy doğsun oğlanı mərd;
Atası kamil olan
Tez tapar dövranı mərd;
Axşamadək ac da qalsa,
Bir tikə yalqız yeməz;
Gedəni yoldan qaytarar,
Xub saxlar mehmanı mərd.

**Aşıq Ələsgər:**Hüseyn əmi, mənim də bu qafiyədə "Mərd" sözüm var. İcazə versən, mən də onu oxuyaram.

**Aşıq Hüseyn:** -Çox şad olaram, buyur.

**Aşıq Ələsgər:** Altı gündə xəlq eylədi
Aləmi sübhanı mərd;

Aya, günə qərar qoyub,
Dolanır dünyanı mərd.
Məhəmməd şəninə endi
Doxsan min kəlmə tamam;
Osman yazdı, cəm eylədi
Otuz cüz Quranı mərd.

**Aşıq Hüseyn**:Bir mərd ilə ülfət qılan
Axır bir gün mərd olu;
Namərd ilə ülfət qılan
Çöl – biyaban gərd olu.
Namərd bir mehman görəndə
İki gözü dörd olu;
Mərd çəkər alar əlindən,
Gen açar sufranı mərd.

**Aşıq Ələsgər:** İbrahimli Xəlilullah
Əhd-peyman eylədi;
Çıxartdı Mina dağına,
Oğlun qurban eylədi;
Həcər yandı, nalə çəkdi,
Ahü fəğan eylədi;
Barilahim kərəm qıldı,
Göndərdi qurbanı mərd.
**Aşıq Hüseyn**:Aşıq Hüseyn deyər,
Namərd binişan olu;
Bir məclisdə namərd olsa,
Məclis pərişan olu.
Mərd bir məclisə varanda,
Məclis ürövşan olu;
Hər yerdə bir xanə yapar,
Kəşt eylər cahanı mərd.

**Aşıq Ələsgər:** Ələsgər adın qurbanı,
Ya Məhəmməd Mustafa!
Şəninə ayə xətm oldu,
Əl -ətasan,qul kəfa.
Dinini aşkar eylədi,
Münkirə verdi cəfa;
Qılıncı mərd, qüvvəti mərd,
Atı mərd, meydanı mərd.

**Aparıcı:** *Aşıqların başına yığışan camaat onlardan yeni bir deyişmə istəyirlər. Bu dəfə aşıqlar "Oynasın" sözü ətrafında deyişməyə başlayırlar.*

**Aşıq Hüseyn**
Başına döndüyüm toy adamları,
Siz də deyin təzə gəlin oynasın.
Adını demirəm, eldən ayıbdı,
Qəmzəsi bağrımı dələn oynasın.

**Aşıq Ələsgər:**
İltimas eylərəm gedən canlardan,
Dost-düşmən içində yar oynamasın!
Cavandı, oynamaq ona xoş gəlir,
Bizə əysikliyi var, oynamasın!

**Aşıq Hüseyn**
Bir tuba boyludu, zülfləri dəstə,
Dərdini çəkməkdən olmuşam xəstə,
İşarət eylərəm anlayan kəsdə,
Dostunun qədrini bilən oynasın.

**Aşıq Ələsgər**
Xudam, mərdin işin salma müşkülə,
Əhli-dili yetir sən əhli-dilə,
Bülbülü gülə yaz, gülü bülbülə,
Qönçənin üstündə xar oynamasın!

**Aşıq Hüseyn**
Duman gəldi, uca dağı bürüdü,
Yar qəhri çəkməkdən canım çürüdü,
Bu məclisdə əyləşənin biridi,
Yaşmağın altından gülən oynasın.

**Aşıq Ələsgər**
Ələsgərəm, gözəllərdi əzbərim,
Belə mürvət olmaz, kərrari-kərim!
Zəhmət-zillət çəkən yazıq əllərim,
İnsafdımı, səndə nar oynamasın?!

**Aşıq Hüseyn**
Dostlar arasında hey ola düzlük,
Olmaya xayınlıq, həm ikiüzlük,
Hər əlində vardı bir ala yüzlük,
Yüzlüyü əlinə alan oynasın.
Şəmkirli Hüseynəm, elərəm fəğan,
Yaş yerinə didələrim tökər qan,
Həm gəlindi, həm gözəldi, həm cavan,
Məni bu dərdlərə salan oynasın.
Başına döndüyüm toy adamları,
Siz də deyin, toya gələn oynasın.

**Aparıcı:** *Camaatın istəyini nəzərə alaraq bu dəfə aşıqlar “Düşməsin” sözünü əsas tutaraq deyişməyə başlayır.*
**Aşıq Ələsgər:**
Hərcayının, dilbilməzin ucundan
Dönə-dönə mən ziyana düşmüşəm.
Doymaq olmaz gözəllərin buyundan,
Pərvanətək yana-yana düşmüşəm.

**Aşıq Hüseyn:**
Qırxlar piri özü verib dərsimi,
Şair cərgəsində sana düşmüşəm.
Arif məclisində, alim yanında
Neçə dəfə imtahana düşmüşəm.
*Deyişmədən sonra ifaçılar alqış sədaları altında səhnədən ayrılırlar.*

**I Aparıcı:** Bu deyişmələrdən də aydın olur ki, Aşıq Hüseyn Şəmkirli aşıq şeirinin rəngarəng, zəngin formalarında müxtəlif mövzularda sənət nümunələri yaratmışdır. Aşıq Hüseynin əsərlərinin sənətkarlıq cəhətdən kamilliyi onların forma gözəlliyində, məzmun dərinliyində özünü göstərir. Aşıq Hüseyn Qurbani, Abbas Tufarqanlı, Sarı Aşıq, Kərəm, Xəstə Qasım, Abdulla, Dilqəm kimi ustadlarından çox şey öyrənmiş, bəhrələnmişdir, özü də bu sahədə yeni şeir formaları, saz havacatları, heç kimə bənzəməyən, zərif duyğuların, geniş müşahidənin məhsulu olan sanballı əsərlər yaratmışdır. Şəmkirdə, Gəncədə, Tovuzda, Qazaxda yaşayan ağsaqqallarımız "Dastanı", "Sarayı", "Şəmkir gözəlləməsi", "Ovşarı", "Zarıncı", "Dilqəmi", "Zeynalabdini" kimi saz havalarını Hüseyn Şəmkirli yaratmışdır.

**II Aparıcı:** Aşığın yaradıcılığının mövzu və janr əhatəsi genişdir, rəngarəngdir. O, yeni saz havaları bəstələdiyi kimi, yeni şeir formaları da yaratmış, aşıqlarımızın repertuarında özünə əbədi yer tutan maraqlı dastanların da müəllifi aşıq sənətinin tarixində seçilən, sevilən, yaratdıqları dillərə düşüb əzbərlənən sənətkarlar səviyyəsinə yüksəlmişdir. Aşığın yaradıcılığında ustadnamələr mühüm yer tutur: Misralarında onun özündən, öz həmkarlarından tələb etdiyi bu xüsusiyyətlər haqqında həməsri Aşıq Ələsgər deyirdi:

Aşıq olub diyar-diyar gəzənin
Əzəl başdan pürkamalı gərəkdir.

**I Aparıcı:** Müsbət dədə-baba ənənələrinin qorunmasına, əslinə, nəslinə, obasına, oymağına layiq yaşamağı üstün tutan aşıq:

Yaman oğul yaxşı ata yerində,
Qaldığından qalmadığı yaxşıdır.

Sözlərində demək istəmişdi ki, elə etmək lazımdır ki, yaxşılar yamanlarla, mərdlər namərdlərlə əvəz olunmasın.

Namərd sənə quzu, plov yedirtsə,
Mərdin quru məhəbbəti yaxşıdır.

sözlərində Aşıq Hüseyn insanlarda olan mərdliyin, düzlüyün, ağıl-kamalın, əqidə bütövlüyünün ona ucalıq gətirməsindən danışır. Məhz belə müsbət xüsusiyyətlər malik olan adamlarla ülfət saxlamağı, dostluq etməyi tövsiyyə edirdi.

**II Aparıcı:** Məhəbbət lirikasının bənzərsiz nümunələrini yaratmış Şəmkirli Hüseynin yaradıcılığında rənglərin doğurduğu anımlara tez-tez təsadüf olunur. Aşıq "Könül" adlı zəncirli müxəmməsində müxtəlif rənglərdən məharətlə istifadə edərək şeirinin təsir qüvvəsini artırmışdır.

Düxtərin gül sifəti,
İrəngi ala qırmızı.
...Qoyubdu tər xınanı,
Ağ nazik ələ qırmızı.
Məclis içində sağı,
Əldə piyalə qırmızı.
Mey üstündən nuş edibdi,
Ləbləri lalə qırmızı.

Burada sənətkar gözəlin üzünü də, başındakı şalı da, əlindəki xınanı da, əlində tutduğu piyaləni də dodaqlarının rəngini də qırmızı rəngdə təsvir etmişdir. Qırmızı rəngin xoşbəxtlik, vüsal, səadət rəmzi olduğunu bilən aşıq sevgilisini bu rəngdə təsəvvür edir.

**I Aparıcı:**Aşıq məhəbbət mövzusunda qələmə aldığı şeirlərində gözəlin zahiri təsvirinə geniş yer verməklə yanaşı, onu həm də

ağıllı, kamallı, dözümlü, tədbirli, əhdinə sadiq görmək istəyir. Bu xüsusiyyətlər bir-birini tamamladıqda gözəl həqiqi gözəl adlandırılır.

Hər yetən gözələ, gözəl demərəm,
Gözəldə özgə bir əlamət olar.

deyən aşıq gözəl qızlarımıza zahiri göyçəkliklə yanaşı, həm də yüksək mənəvi keyfiyyətlər arzulamışdır.

**II Aparıcı:** Gözələ, ailəyə, dosta, övlada, torpağa, daşa, təbiətə, vətənə və s. olan məhəbbət hissləri bir-biri ilə əlaqəli şəkildə verilir. Ümumiyyətlə gənc nəslin milli ruhda tərbiyəsində, vətənpərvərlik hisslərinin formalaşmasında aşıq yaradıcılığının, xüsusilə vətənə, millətə, qəhrəmanlığa həsr olunan şeirlərin böyük rolu var. Hüseyn Şəmkirlinin yaradıcılığında bu əlamətlərin əksəriyyətini görür, onların necə təbii bir ilham, çılğın ehtirasla tərənnüm edildiyinin şahidi oluruq.

**I Aparıcı:** O, hər şeyi dərindən sevdiyi üçün başqalarına da, sevdirə bilmiş, bu səbəbdən də onun şeirləri dillər əzbəri olmuşdur. Aşığın əsərlərində ana təbiətin başı qarlı uca dağları, dərin dərələri, çağlayan çayları, dərman çiçəkləri, çölləri, düzləri, lilparlı bulaqları sevilə-sevilə tərənnüm edilir. O, bunları coşqun bir ilhamla vəsf edir. O, təbiətin hər fəslində baş verən dəyişiklikləri incəliklə, gözəllikləri həssaslıqla izləyir, müxtəlif əsrarəngiz lövhələrin sözlə şəklini çəkir. Aşığın ətraf mühiti müşahidə qabiliyyəti, hadisələri dərk etmək bacarığı xüsusi ilə güclüdür.

**II Aparıcı:** Dodaqdəyməz təcnis formasında qələmə aldığı “Qıj-qıj” şeiri bu cəhətdən xarakterikdir.

Qış çilləsi, Xıdır İlyas gələndə,
Hərlənər gərdişi ay eylər qıj-qıj,
Qar selə dönəndə, yaz açılanda,
Şaqqıldar leysanı ay eylər, qıj-qıj.

Yaz fəsli qarların, buzların əriyib sel kimi üzü aşağı qıjıltılarla axmasını daha canlı, qabarıq çatdırmaq üçün “ş”, “ç”, “j”

səslərindən, hərflərindən yerli-yerində istifadə olunmuşdur. Belə bədii ifadə vasitələri ilə zənginləşməsi aşıq şeirində xəlqiliklə bağlıdır.

**I Aparıcı:** Mübariz ruhlu Hüseyn Şəmkirli poeziyasında bəzən bir kövrəklik, giley-güzar da özünü büruzə verir:

Sək rəqibi bir muyunla bağlaram,
Şamlar yaxıb, bağrım başın dağlaram.
Bu səbəbdən ah çəkibən ağlaram,
Qohumum vay, qardaşım vay, elim vay.

Bu misralar həmvətənlərinin ağır güzaranına, əzab-əziyyətinə biganə qala bilməyən, onların dərdini öz dərdi hesab edən bir aşığın ürəyindən süzülüb gələn misralardır.

**II Aparıcı:** Belə çoxşaxəli, yüksək bədii, mənalı, məzmunlu, zəngin bir ədəbi irs qoyub getmiş bu görkəmli aşıq Azərbaycanın folklor tədqiqatçıları ilə birlikdə xaricdə yaşayan ədəbiyyatşünas alimlərin də nəzər-diqqətini cəlb etmişdir. Azərbaycan folkloru və ədəbiyyatının qonşu Türkiyədə yorulmaz tədqiqat və təbliğatçısı Ürfan Ənvər Nəsrəddinoğlu "Türk dünyası araşdırmaları" (1986) toplusunda Hüseyn Şəmkirlinin adını həm əsrlərindən Aşıq Alı, Musa, Molla Cümə,Varxiyanlı Məhəmməd, Dilqəm, Ələsgərlə birlikdə çəkmiş və onların XIX əsrin məşhur saz-söz ustadları olduğundan bəhs etmişdir.

Aşıq Hüseyn məclisdədi yenə də,
Qar içində alovlanır, odlanır,
Qar altında saz məclisi başlayır,
Yer altında saz məclisi başlayıb?!

*Şair Barat Vüsal*

**I Aparıcı:** Aşıq Hüseyn Şəmkirli 1891-ci ildə 80 yaşında haqq dünyasına qovuşsa da, onun zəngin ədəbi irsi Azərbaycan aşıq ədəbiyyatının ən gözəl nümunələri kimi dildən-dilə, eldən-elə dolaşmaqdadır və yüz illər keçsə də belə bu belə olacaqdır.

## “Ələsgərəm, hər elmidən halıyam...”

Saz-söz dünyasında elə nadir və nəhəng simalar vardır ki, onları mənsub olduqları sənət sahəsinin simvolu hesab etmək ana südü kimi halal görünür. Bu sıradan Azərbaycan aşıqlığının bütün dönəmlər üçün sənət pasportu olmaq haqqının əsas daşıyıcılarından biri Aşıq Ələsgərdir. Aşıq Ələsgər klassik ədəbiyyatımızın qaynaqlarından şirə almış, zəngin aşıq sənətini dərindən-dərinə mənimsəmiş, böyük bir novator sənətkar kimi onu yeni mərhələyə qaldıra bilmişdir. Bu münasibətlə kitabxanalarda, məktəblərdə, lisey və gimnaziyalarda bir sözlə aşıq sənətinə qiymət verən dövlət müəssələrində tədbirlər planı hazırlanmışdır. Həmçinin, F.Köçərli adına Respublika Uşaq Kitabxanasında da belə tədbirlərin keçirilməsi nəzərdə tutulmuşdur. Belə tədbirlərin siyahısına foto sərgini, kitab sərgisini, aşıq sənəti ilə bağlı kitab müzakirəsini, oxucu konfransını, ədəbi-bədii gecəni bə başqa tədbirləri daxil etmək olar. Əvvəlcə kitabxanada Aşıq Ələsgərin foto sərgisini, sonra isə Aşıq Ələsgərin kitablarını, bir sözlə aşıq sənəti ilə bağlı olan bütün kitabların sərgisini təşkil etmək olar. Sərgi müxtəlif başlıqlar altında keçirilə bilər. Məsələn, “Sazın əbədiyyət yolu”, “Saz-söz ustadı”, “Aşıq Ələsgər-195”, “Aşıq sənəti və Aşıq Ələsgər”, “Xatirələrdə yaşayan sənətkar”, “Ələsgərəm, hər elmdən halıyam...” və s. İndi isə sərginin sxemini nümunə üçün veririk:

6. Başlıq.
   Aşıq Ələsgər-195.
   Foto-stend.
7. Kitablarının nümayişi.
8. Dövri mətbuatda çap olunan materialların nümayişi.

Görkəmli insanların Aşıq sənəti və Aşıq Ələsgər haqqında söylədikləri
Şeir parçası.

Aşıq olub tərki-vətən olanın
Əzəl başdan pürkamalı gərəkdi.
Oturub durmaqda ədəbin bilə,
Mərifət elmində dolu gərəkdi.


















**Görkəmli şəxslərin Aşıq Ələsgər haqqında söylədikləri:**

1. Aşıq Ələsgərin yaradıcılığı Azərbaycan poetik fikrinin inkişafında parlaq və gözəl bir səhifədir ki, o, insanın ürəyində doğrudan da çox nəcib duyğular oyadır, insana böyük zövq və ləzzət verir.

**Mirzə İbrahimov**
**Xalq yazıçısı**

2. Aşıq Ələsgərin yaradıcılığında insan gözəlliklərinin təsviri və tərənnümü xüsusi yer tutur.

**İslam Ələsgər**
**Filologiya elmləri namizədi**

3. Dədə Ələsgərin yaradıcılığını türk xalqının ensiklopediyası adlandırmaq olar. Ələsgər şeiri Azərbaycan ruhunun güzgüsüdür.

**Tamilla Əliyeva**
**Filologiya elmləri namizədi**

4. Gözəllik nəğməkarı olmuş ustad aşığın dastan yaradıcılığına münasibəti həm dastan yaradıcılığı üsullarının öyrənilməsi, həm də aşığın sənətə verdiyi ictimai-siyasi əhəmiyyətin ifadəsi kimi maraqlı və qiymətlidir.

**Şamxəlil Məmmədov**
**Pedaqoji elmlər namizədi**

Kitabxanada Aşıq Ələsgər poeziyasını oxuculara tanıtmaq məqsədilə bu mövzuda oxucu konfransı təşkil etmək məqsədəuyğundur. Kitabxanaçı oxucu konfransına bu konfransda iştirak edəcək oxucularla birlikdə bir ay əvvəldən hazırlaşır, oxuculara Aşıq Ələsgərin yaradıcılığından bəhs edən ədəbiyyatlar verir. Azərbaycanın böyük xalq sənətkarı, mütəfəkkiri Aşıq Ələsgərin yubileyi ilə bağlı oxucu konfransının keçirilməsi bir tərəfdən ustadın zəngin yaradıcılığından ilham alıb bugünkü sosial-mənəvi ehtiyacımızı ödəməyə kömək edirsə, digər tərəfdən, həmin yaradıcılığın hərtərəfli öyrənilib lazımi səviyyədə təbliğ olunması üçün geniş imkanlar açır.

***Kitabxanaçı konfransın əvvəlində oxuculara Aşıq Ələsgərin həyat və yaradıcılığı haqqında qısa məlumat verir.***

**Kitabxanaçı:** Aşıq poeziyasının, ümumən ədəbiyyatımızın ən uca zirvəsi sayılan böyük ustadımız Aşıq Ələsgərin adı, şəxsiyyəti, yaradıcılığı hamımız üçün əziz və doğmadır. Bu əzizliyin və doğmalığın səbəbi ondan ibarətdir ki, Aşıq Ələsgər bir böyük istedad sahibi kimi xalqımızın əxlaqi sərvətlərini, mənəvi dəyərlərini, adət-ənənəsini, toyunu-yasını, sevincini-kədərini, ictimai dərdlərini çox böyük ustalıqla, uca sənətkarlıqla öz əsərlərində əks etdirmiş, açıb göstərmişdir. Aşıq Ələsgər - Ələsgər Alməmməd oğlu 1821-ci ildə İrəvan xanlığının Göyçə mahalının Ağkilsə kəndində anadan olmuşdur. Aşıq Ələsgər xüsusi təhsil ala bilməmiş, sənətin sirlərini el sənətkarlarının və ağsaqqalların yanında öyrənmişdi. İlk şeirini də yeniyetməlik çağlarında aşıqların, xalq sənətkarlarının təsiri ilə söyləmişdir. Aşıq qoşmalar, təcnislər, gəraylılar, dodaqdəyməzlər yazıb, onları şövqlə sazda ifa etmiş, dastanlar söyləmişdir. O, aşıq sənətini müəllimi - böyük ustad Aşıq Alıdan öyrənmişdi. Aşıq Alının yanında şəyirdlik edən Ələsgər aşıqlıq sənətinin sirləri ilə bərabər ondan ədəb və mərifət qaydalarını da öyrənmişdir. Aşıq Alı toy məclislərinin birində Ələsgərlə deyişmiş və şəyirdinin söhrətini qaldırmaq, onu el içində ucaltmaq məqsədilə qəsdən ona məğlub olaraq sazını qalib tərəfə - Ələsgərə təslim etmək istəmişdir. Ələsgər isə böyük təvazökarlıq hissi ilə ustadının qarşısında baş əyib, ona öz ehtiramını bu sözlərlə ifadə etmişdir:

Bir şəyird ki, ustadına kəm baxa,
Onun gözlərinə qan damar, damar.

Şəyirdlik dövrünü başa vurduqdan sonra Ələsgər Göyçə ilə yanaşı İrəvanda, Naxçıvanda, Qazaxda, Qarabağda, Gəncədə də məşhurlaşmış, Göyçə aşıq məktəbinə rəhbərlik etmişdir. Ömrünün çoxunu xalqın içərisində, toy, şadlıq məclislərində keçirən Aşıq Ələsgər təkcə Azərbaycanda yox, Türkiyədə, İranda və Dağıstanda da ustad sənətkar kimi tanınmışdır. 1918-1919-cu illərdə daşnakların türklərə qarşı törətdiyi qırğın nəticəsində

Göyçə mahalının var-yoxu talanmış, əhali öz dədə-baba yurdunu tərk edib başqa yerlərə köçməyə məcbur olmuşdur. İki ilə qədər Yanşaqda yaşayan Aşıq Ələsgər sonra Tərtərə köçmüş, bir neçə ay da orada qalmışdır. Bu yerlərin hər birində aşığı hörmətlə qarşılasalar da, onun ürəyi-gözü Göyçədə idi. O, gözünü açıb gördüyü doğma yerlər: Srınər, Murov, Muşoy dağları, Xaçbulaq yaylaqları üçün çox darıxırdı. Nəhayət, 1921-ci ildə o, Ağkilsəyə qayıtmış, ömrünün son illərini doğma kəndində yaşamışdır. Ancaq onun çal-çağırlı günləri arxada qalmışdı. Ömrünü toylarda, şadlıqlarda keçirən aşıq evdə oturmaqdan darıxır, qocalıqdan, xəstəlikdən şikayətlənirdi. O, tez-tez keçmiş günləri xatırlayır, dünya, həyat barədə düşünüb kədərlənirdi:

Səksəni, doxsanı keçibdir yaşım,
Əzrayıl həmdəmim, məzar yoldaşım.
Gor deyə tərpənir bəlalı başım,
Daha köç təbilin çal, qoca baxtım.

Aşıq Ələsgər 1926-cı il mart ayının 7-də doğulduğu Ağkilsə kəndində vəfat etmiş və burada da dəfn edilmişdir. Lakin Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar olaraq 90-cı illərin əvvəllərində Azərbaycanın böyük aşıq-şairinin qəbri ermənilər tərəfindən vəhşicəsinə yerlə yeksan edilmişdir. Aşıq Ələsgərin xatirəsi dövlətimiz tərəfindən əbədiləşdirilib. Onun adına küçə, mədəniyyət sarayı, respublika Xalq Yaradıcılığı evi fəaliyyət göstərir, Bakıda isə Hüseyn Hacı Qulu oğlu tərəfindən "Aşıq Ələsgər muzeyi" yaradılmışdır.

*Sonra konfransda iştirak edən oxucular Aşıq Ələsgər haqqında maraqlı məlumatlar söyləyirlər.*

**I Oxucu:** Müasirləri xatırlayırlar ki, "Ələsgər ucaboy, enlikürək, bədəncə çox sağlam, çox da qüvvətli bir insan idi. Qara gözləri, qalın, qara çatma qaşları, dolu sifəti, iri burnu vardı. Əyninə uzun ətəkli arxalıq, üstündən çuxa, ayağına məst geyər, başına buxara papaq qoyardı. Həmişə başını qırxdırar, üzündə xətt saxlardı. Həmişə sazı sol əli ilə çalar, zil səslə oxuyardı". Aşıq Ələsgər istər özündən əvvəl, istərsə də özündən sonra heç bir xalq şairi, aşığı ilə

müqayisə olunmayacaq qədər müxtəlif janrlarda əsərlər yaratmışdır. **Ustadnamə, zəncirləmə, gəraylı, varsağı, təcnis, qıfılbənd, həcv, hərbə-zorba, şikayətnamə, dodaqdəyməz, dildönməz, divani, müxəmməs, müqəddəs, qəzəl, deyişmə** və s.

**II Oxucu:** Aşıq Ələsgər yaradıcılığı mövzu baxımından çox rəngarəngdir. O, Vətənin gözəllərini necə ilhamla tərənnüm edirdisə, Vətənin igidlərini də o cür qürurla tərifləyir, onların mərdliyindən vəcdə gəlir, şəninə dastanlar yazırdı. O, həmçinin, dastan yazmaqla kifayətlənmir, şəyirdlərindən tələb edir ki, həmin dastanları hər yerdə oxusunlar, yaysınlar. Həmçinin Aşıq Ələsgər M.P.Vaqif kimi gözəlliyi, gözəlləri öz dastanlarında həmişə tərənnüm edirdi.

**III Oxucu:** Qeyd etdiyimiz kimi, Aşıq Ələsgərin gözəllik barəsindəki təsəvvürü daha genişdir. Onun Vətənin gözəlliyi, təbiəti haqqında yazdığı dastanlar daha çox diqqəti cəlb edir. Məsələn, Dəlidağ, Şəki, Kəlbəcər, Qarabağ, Şirvan, Qoşqar, Muğan, Göyçə, Xaçın, Narışdar, Murov, Çilgöz, Uzunyoxuş və s.

**IV Oxucu:** Onun əsərlərində Azərbaycan təbiəti, onun dağları, düzləri, çayları, gölləri, bulaqları, göy yaylaqları bütün ətri, təravəti və gözəlliyi ilə öz əksini tapmışdır. Elə bu səbəbdən də onun bizə gəlib çatan zəngin yaradıcılığı özündən sonra gələn istedad sahiblərinin – şairlərin, aşıqların, bəstəkarların, xanəndələrin, müğənnilərin, rəssamların diqqətini çəkmiş, hər kəs öz imkanı daxilində bu böyük sənətkara öz töhfəsini vermişdir.

**V Oxucu:** Aşıq Ələsgər irsinin toplanıb üzə çıxarılmasında, ustada layiq şəkildə xalqa çatdırılmasında görkəmli alim və şairlərimizin – Hümbət Əlizadənin, Əhliman Axundovun, İslam Ələsgərlinin, Həmid Araslının, Mürsəl Həkimovun, Səttar Axundovun, Osman Sarıvəllinin, Hüseyn Arifin, Məmməd Aslanın, İlyas Tapdığın, Vaqif Vəliyevin və b. böyük və danılmaz

xidmətləri olmuşdur. Xüsusən, Aşıq Ələsgər irsinin geniş şəkildə araşdırılmasında, öyrənilməsində, tədqiqində Hümbət Əlizadənin daha çox xidməti olmuşdur.

**VI Oxucu:** Aşıq Ələsgərin sağlığında kitabı nəşr edilməmişdir. İlk nəşri 1937-ci ildə Hümbət Əlizadənin tərtib etdiyi "Aşıq Ələsgər" adlı kitabı olmuşdur. Bundan sonra müxtəlif illərdə ustadın kitabları dolğunlaşa-dolğunlaşa, təkmilləşə-təkmilləşə nəşrdən nəşrə daha mükəmməl şəkildə çap olunmağa başlamışdır. İldən-ilə onun yaradıcılığına maraq daha da güclənmiş, xalqımızın görkəmli alimləri onun yaradıcılığını bütün yönlərdən, müxtəlif istiqamətlərdən təhlil və tədqiq etmişlər. 1972-ci ildə ustadın anadan olmasınınm 150 illiyi, 1988- ci ildə 175 illiyi çox böyük təntənə ilə qeyd edilmiş, əsərləri Azərbaycan Elmlər Akademiyası tərəfindən iki cilddə çap edilmişdir.

**VII Oxucu:** Bəstəkarlarımızdan Bayram Hüseynli, Qəmbər Hüseynli, Səid Rüstəmov, Hacı Xanməmmədov və başqaları Aşıq Ələsgərin əsərlərinə dillər əzbəri olan musiqilər bəstələmişlər. Ümumiyyətlə, elə bir bəstəkar, xanəndə, müğənni, aşıq təsəvvür etmək olmaz ki, o, Aşıq Ələsgər yaradıcılığına müraciət etməmiş olsun. Aşıq Ələsgərin ilk mətbu əsərləri - "Dağlar", "Bizim dağlar" şeirləri 1927-ci ildə "Yeni kənd" jurnalında (№3) çap olunmuşdur. Hümmət Əlizadənin onun haqqında ilk dəfə tərtib etdiyi "Aşıq Ələsgər" adlı kitabı isə 1934-cü ildə nəşr olunmuşdur. Aşıq Ələsgərin sözlərinə yüzlərlə mahnı və romanslar bəstələnmişdir. O, xalq tərəfindən bu gün də sevə-sevə dinlənilir.

**Kitabxanada keçiriləcək tədbirlərin siyahısına Aşıq Ələsgərdən bəhs edən ədəbi bədii gecəni də daxil etmək olar.** Kitabxanaçı Aşıq Ələsgərin 195 illik yubileyinə həsr olunmuş ədəbi-bədii gecəyə tanınmış şair, Aşıq Ələsgər irsinin toplanıb nəşr edilməsində şifahi ədəbiyyatımızın ən yaxşı naşirlərindən biri olan Hümmət Əlizadəni, Aşıq Ədaləti, Aşıq Zülfiyyəni, Aşıq Tellini və "Aşıq Pəri" məclisinin bir qrup tanınmış aşıqlarını dəvət edə bilər. İlk əvvəl qonaqlar Aşıq Ələsgərdən bəhs edən sərgi ilə tanış olurlar. Sonra tədbir iştirakçılarına Aşıq Ələsgərdən bəhs edən slayd təqdim olunur. Slaydın nümayişindən sonra, aparıcılar səhnəyə çıxıb tədbiri açıq elan edirlər.

**I Aparıcı:** Salam əziz və dəyərli qonaqlar, hörmətli oxucular. Hər birimiz bu gün Aşıq Ələsgər poeziyasının işığına yığışmışıq. Kökü çox-çox qədimlərdən şirə çəkən Azərbaycan aşıq sənətinin on doqquzuncu yüzillikdən azman ustadları sırasında Aşıq Ələsgərin yeri ayrıcadır. Onun bulaq kimi çağlayan coşqun ilhamından bizlərə yadigar qalan saz-söz inciləri neçə qərinədir ki, xalqımızın dilində əzbərdir. Dədə Ələsgərin könüllər bəzəyən qoşmaları, şaqraq gəraylıları, dərdlərə məlhəm təcnisləri hər zaman saz-söz məclislərimizin yaraşığıdır.

**Yüz il dövran sürən aşıq Ələsgər,**
**Min-min məclislərə yaraşıq oldu.**
**Çoxları saz tutub gəlib-getdilər,**
**Ələsgər zülmətdə gur işıq oldu.**

Qədim Azərbaycan mahallarından birində indi yağılar əlində qalmış ulu Göyçədə göz açıb, saz sehri, söz tilsimiylə bütün Qafqazı, Türkiyə və İranı heyrətdə qoyan Aşıq Ələsgər Dədə Qorquddan, Qurbanidən, Tufarqanlı Abbasdan, Xəstə Qasımdan üzü bəri xalq arasında böyük şöhrət qazanmış ustadlar cərgəsinə qoşula bilmişdir. Möhtəşəm saz sənətinin incəliklərinə dərindən bələd olmaqla yanaşı, o, aşıq adının, ustad hörmətinin uca tutulub xətirli saxlanılmasında əvəzsiz xidmətlər göstərmişdir.

**II Aparıcı: Aşıq olub diyar-diyar gəzənin**
**Əzəl başdan pürkamalı gərəkdi.**
**Oturub durmaqda ədəbin bilə,**
**Mərifət elmində dolu gərəkdi.**

Saflıq, doğru-dürüstlük, halallıq ölçülərini həyat və sənət amalına çevirən böyük aşığın ustad kəlamları hər zaman dəyərli və tutarlı öyüd-örnəklərdir.

**El içində düz otura, düz dura,**
**Dalısınca xoş sədalı gərəkdi!**

**I Aparıcı:** Ələsgər şeiri Azərbaycan ruhunun güzgüsüdür. Doğma torpağa bağlılıq, ana yurdun axar-baxarlı gözəlliklərinə vurğunluq, alın tərindən nur alan güzəran şirinliyinə heyranlıq, mərdlik, sədaqət, dünyasının şah damarıdır. Babalarımızın vüqar, ucalıq yerində tərifə mindirdiyi başı qarlı ulu dağlarımız da elə bu səbəbdən Ələsgər sazından əzəli və əbədi bir vətən sevgisi kimi boy göstərir. Özü də bu dağlarda Azərbaycan ellərinin hay-haraylı, çal-çağırlı binələri, bərəkətli ağacları, qonaq-qaralı oymaqları baş-başadır. Oradakı durna gözlü bulaqlar aşığın, hər bir sözündə, səsində çağlayır.

**II Aparıcı: Xəstə üçün təpəsində qar olur,**
**Hər cür çiçək açır, laləzar olur.**
**Çeşməsindən abi-həyat car olur,**
**Dağıdır möhnəti, məlalı dağlar.**

Elə bil ki, Dədə Ələsgər candan əziz bildiyi Göyçə dağlarının nə vaxtsa əldən çıxıb yad-yağılara qismət olacağından duyuq düşübmüş. Azərbaycan torpağının qaymağı olan Göyçə yaylaqlarının eldən ayrı düşəcəyinin xiffətini, ağrısını ustad sənətkar necə də uzaqgörənliklə söyləyib.

**Hanı mən gördüyüm qurğu-büsatlar?**
**Dərdməndlər görsə, tez bağrı çatlar.**
**Mələşmir sürülər, kişnəşmir atlar.**
**Onçu pərişandı halların, dağlar!..**

**I Aparıcı:** Çox gəzib, çox görüb, çox öyrənən Aşıq Ələsgər özü demişkən, "hər elmdən halı" sənətkardı. Dövrünün şeir, sənət, eləcə də şərq fəlsəfəsi və islam dini ilə bağlı biliklərə dərindən yiyələnməsi onun yaradıcılığında aydın şəkildə görünür. Ətraflı məlumata və geniş təssəvvürə malik olması sayəsində Tufarqanlı Abbas, Xəstə Qasım kimi böyük sənətkarların yüz illər boyu kilidli qalan bir çox qıfılbənd və bağlamalarını məhz Aşıq Ələsgər aça bilmişdir. Özünün düzüb qoşduğu qıfılbənd, divani və müxəmməslərdə o, elmi məlumatları qüdrətli istedadı ilə qovuşduraraq əvəzsiz ağıl və könül inciləri yaratmışdır. Ustadın sinəsində çağlayan müdriklik çeşməsindən haqq-ədalət yoluna çağırış, mehribançılıq, böyüyə ehtiram, dost-yoldaş, qohum-qonşu arasında səmimiyyətə səsləyən öyüdlər axır.

**II Aparıcı: "Can" deməklə candan can əskik olmaz,**
**Məhəbbət artırar, mehriban eylər.**
**"Çor" deməyin nəfi nədi dünyada?!**
**Abad könülləri pərişan eylər.**

Abad könülləri pərişan eyləmək, dünyanı düzlüyə səsləmək, haqqı nahaq, mərdi namərd ayağına verməmək Ələsgər şeirlərinin başlıca qayəsi idi. Ələsgər şeirində Azərbaycan torpağı, Azərbaycan ruhu kimi Azərbaycan dilinin incəlikləri də özünəməxsus bir gözəlliklə cilvələnir. Canlı el danışığının bütün şəhdi-şəkəri, aşığın şeir dilinə bulaq saflığı, bal şirinliyi gətirmişdir. Ana dilinin incə çalarları hesabına ərsəyə gələn təcnisin cığalı, dodaqdəyməz, dildönməz kimi nadir incilərini Dədə Ələsgər Azərbaycan dilinin dərin qatlarına baş vuraraq yaratmışdır.

**I Aparıcı: Qışda dağlar ağ geyinər, yaz qara,**
**Sağ dəstinlə ağ kağıza yaz qara.**
**Əsər yellər, qəhr eyləyər yaz qara,**
**Daşar çaylar, gələr daşlar çata-çat.**

Əsrarəngiz təbiətimizin göz oxşayan yaraşığından tutmuş el gözəllərinin vəsfini, mərd igidlərin tərifini saz-söz sehriylə ucalardan ucalara qaldıran böyük ustadın ilk kəlməsindən son

kəlamınacan bütün söz dünyasında Azərbaycan ruhunun və Azərbaycan dilinin saflığı hakimdir. Əzəmətli Aşıq Ələsgər sənətini yüzillikləri fəth etməyə aparan da onun bağrındakı saf və yenilməz xalq qüdrətidir. Ələsgər poeziyası xalq ruhunun, milli düşüncə və təfəkkürümüzün parlaq ifadəsidir. Şeirləri dillər əzbəri olan, o taylı-bu taylı Azərbaycanda, ümumən Türk dünyasında sevilən bu qüdrətli saz şairinin ədəbi irsinə dövlət səviyyəsində həmişə diqqət göstərilmişdir.

**II Aparıcı:** **Yaxşı hörmətinən, təmiz adınan**
**Mən dolandım bütün Qafqaz elini.**
**Pirə ata dedim, cavana qardaş,**
**Ana, bacı bildim qızı, gəlini.**

Aşıq Ələsgərin xalq arasında böyük nüfuza malik olmasının bir səbəbi onun haqdan gələn qeyri-adi, tükənməz istedadı, müdrikliyi, mənəvi möhkəmliyi yüksək ədəb-ərkanı idi.

**Aşıq olub tərki-vətən olanın**
**Əzəl başdan pürkamalı gərəkdi.**
**Oturub durmaqda ədəbin bilə,**
**Mərifət elmində dolu gərəkdi.**

**I Aparıcı:** Azərbaycan müstəqillik qazanandan sonra aşıq sənətinə diqqət artmış, klassik irsin nəşri, araşdırılması ilə yanaşı aşıq poeziyasına qayğı yeni vüsət almışdır. Bəli bu gün milli mənsubiyyətini, dilini, ruhunu, adət-ənənəsini, mədəni sərvətlərini qorumaq üçün hər bir xalq öz kökünə doğru gedir, xilasını mənəvi dəyərlərinin, əxlaqi sərvətlərinin yenidən dərk olunmasında görür. Biz kitabxanaçılar da, bu sahədə əlimizdən gələni öz dəyərli oxucularımız üçün etməyə həmişə hazırıq.

Son

**İstifadə olunan ədəbiyyat siyahısı:**

İnternetdə:
www.adam.az.
www.google.az

**Kitablar:**

1. Azərbaycan aşıqları. Bakı: Çaşıoğlu, 2004.-S.193-196
1. Aşıq Ələsgər. Əsərləri: Şeirlər, dastan-rəvayətlər .- Təkrar nəşr .- Bakı: Şərq-Qərb, 2004. - 400 s.
2. Aşıq Ələsgər. Şerlər, dastan-rəvayətlər, xatirələr.- Bakı: Çinar-çap, 2003.- 496 s.

**Dövri mətbuatda**:

M. Qasımlı. Aşıq Hüseyn Şəmkirli // Mədəniyyət.-2011.-2 dekabr.-№ 89. S.13

A.Ələsgər Düşdü. Gördüm. Dəyməmiş. Yanə-yanə. Yaylaq. Gözəl / Aşıq Ələsgər // Azərbaycan. - 2006. - №8. - S.3-6.

N. Azər. Aşıq Ələsgər-şerin ən uca zirvələrindən boylanan sənətkar / A.Nuriyev // Kaspi.- 2011.- 3 iyun.- № 97.- S. 12.

S. Fəxrəddin. Bir ozanın bəxti: Aşıq Ələsgər haqqında / F. Salim // Kaspi.- 2011.- 9 fevral.- № 24.- S. 13.

Ə.İslam. Ustadlar ustadı: Aşıq Ələsgər - 190 / İ. Ələsgər // Respublika.- 2011.- 14 aprel.- № 75.- S. 6

A.Qədir**.** Aşıq sənətinin korifeyi: Aşıq Ələsgər- 190 / Q. Aslan // Respublika.-2011.- 4 iyun.- № 115.- S. 7.

L.Ə. Mahmud. Ələsgər poeziyasının qüdrəti: Aşıq Ələsgər -190 / Ə. M. Lələdağ // Azərbaycan müəllimi.- 2011.- 1 aprel.- № 12.- S. 13

N. Məhəmməd. Dərsi azlar Ələsgərdən dərs aldı... : Aşıq Ələsgər - 190 / M. Nərimanoğlu // Azərbaycan.- 2011.- 2 iyun.- № 117.- S. 7

A.Tahir. Qədəm: Aşıq Ələsgər - 190 / T. Abbaslı // Mədəniyyət.- 2011.- 20 aprel.- № 27.- S. 12.

**“Saz - Söz sərvətimizin keşiyində” –Aşıq Hüseyn Şəmkirlinin 205, Aşıq Ələsgərin 195 illik yubileyi münasibəti ilə respublika uşaq kitabxanaları üçün hazırlanmış metodik vəsait**

**Kompyuter yığımı**
**və dizayn: Ruhiyyə Məmmədli**

**Ünvan:AZ-1022 Bakı şəh., S.Vurğun küç.88;**
**E-mail: childlibbaku@yahoo.com**
**URL:www.clb.az**

**F.Köçərli adına Respublika Uşaq Kitabxanasında çap olunmuşdur.**
**Sifariş:**
**Çapa imzalanmışdır:**
**Tirajı:100**
**Pulsuz**